## “Tikinti obyektinin istismarına icazənin vahid forması”nın təsdiq edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli Fərmanının 1.6.24-cü yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Tikinti obyektinin istismarına icazənin vahid forması” təsdiq edilsin (əlavə olunur).

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə**

Bakı şəhəri, 11 sentyabr 2014-cü il
№ 302

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2014-cü il 11 sentyabr
tarixli 302 nömrəli qərarı ilə
**təsdiq edilmişdir**

**Tikinti obyektinin istismarına**

**İCAZƏ № ___**

**Rayon, şəhər, şəhər rayonu, qəsəbə, kənd**

**Tarix**

Tikinti obyektinin istismarına
icazə verən orqanın adı və ünvanı: ____________________________
Tikinti obyektinin ünvanı, döngə
nöqtələrinin koordinatları, adı (adı olduqda): ____________________________
Tikinti obyektinin istismar təyinatı: ____________________________
Tikinti obyektinin əsas texniki göstəriciləri:

| Göstəricilərin adı | Ölçü vahidi | Layihə üzrə | Faktiki |
|---|---|---|---|
| | | | |
| | | | |
| | | | |

Tikintiyə dövlət nəzarətini həyata keçirən orqan tərəfindən verilən tikintinin istismara hazırlığını təsdiq edən istismara hazırlıq aktının verilmə tarixi və qeydiyyat nömrəsi ________________________________________________________________________________________

Tikintilərin dövlət reyestri tərəfindən tikinti obyektinə verilmiş kodun nömrəsi________________________________________________________________________
Tikinti obyektinin sifarişçisi ____________________________________________________________
Tikinti obyektinin layihəçisi ____________________________________________________________
Tikinti obyektinin podratçısı ____________________________________________________________
Tikinti obyektinin dəyəri (dövlət vəsaiti hesabına tikildikdə) ______________________________
Tikinti obyektinin keyfiyyət zəmanəti müddəti __________________________________________

Təqdim olunmuş sənədlərə əsasən tikintisi başa çatmış obyektin və ya onun bir hissəsinin şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələblərinə və tikinti layihəsinə uyğun inşa edildiyini və ondan təyinatı üzrə istifadənin mümkünlüyünü nəzərə alaraq, __________ tarixindən ___________________ tikinti obyektinin istismarına icazə verilsin.
(istismarçının adı)

______________________________ **İcra Hakimiyyətinin başçısı**

_______________________________________      _______________________________________

(imza)      (adı, soyadı)

M.Y.